ID: [redacted]

[redacted]

Azərbaycan Respublikası adından

**Q Ə T N A M Ə**

Bakı şəhəri İş № e-[redacted]/2021 [redacted]2021-ci il

**BAKI ŞƏHƏRİ YASAMAL RAYON MƏHKƏMƏSİ**

Hakim Babazadə Gülnar Vidadi qızının sədrliyi,
Məhkəmə iclas katibi Nadirov Turqut Vilayət oğlunun katibliyi,
İddiaçı [redacted] qızının nümayəndəsi və vəkili Əliyev Absələddin Murtuz oğlunun iştirakı ilə,

İddiaçı [redacted] qızının cavabdeh [redacted] oğluna qarşı "digər valideynin icazəsi olmadan müvəqqəti olaraq uşağın ölkədən çıxışına icazə verilməsi" tələbinə dair mülki işə məhkəmənin inzibati binasında, açıq məhkəmə iclasında baxaraq, məhkəmə

MÜƏYYƏN ETDİ:

İddiaçı [redacted] qızı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, yetkinlik yaşına çatmayan 25 iyul 2017-ci il təvəllüdlü [redacted] qızının cavabdeh [redacted] oğlunun razılığı olmadan iddiaçı [redacted] qızı ilə ölkədən sərbəst surətdə getməsinə və gəlməsinə icazə verilməsi barədə qətnamə qəbul edilməsini məhkəmədən xahiş etmişdir.

İddia tələbi onunla əsaslandırılmışdır ki, cavabdeh [redacted] oğlu ilə iddiaçı arasında [redacted] 2016-cı il tarixdə 3 saylı ASAN Xidmət Mərkəzində rəsmi nikah bağlanaraq, bu barədə nikahın bağlanması haqqında akt qeydləri kitabında [redacted] nömrə ilə qeyd edilmişdir. Birgə nikah 25 iyul 2017-ci il təvəllüdlü [redacted] qızı doğulmuşdur. Ailə qurduqdan bir müddət sonra cavabdehlə münasibətləri pisləşdiyindən aralarında olan nikah Yasamal Rayon Məhkəməsinin [redacted] saylı 11.02.2020-ci il tarixli qətnaməsi ilə pozulmuşdur. Nikaha 11.03.2020-ci il tarixdə xitam verilmiş, bu barədə nikahın pozulması haqqında akt qeydləri kitabında [redacted]-ci il tarixdə [redacted] nömrə ilə qeyd edilmişdir. Nikaha rəsmi olaraq xitam verilməmişdən bir müddət əvvəl artıq cavabdeh evdən getmiş və münasibətlər faktiki olaraq kəsilmişdir. Ötən müddət ərzində cavabdeh uşaqla maraqlanmamış, nikah rəsmi pozulduqdan sonra cəmi bir təfə telefon əlaqəsi yaratmış, o da iddiaçını uşaqla təhdid etmək məqsədi daşımışdır. İddiaçı [redacted] qızı işi ilə əlaqədar olaraq, eləcə də xarici ölkələrdə istirahəti ilə bağlı uşağı ölkə hüdudlarından kənara çıxarmaq istəyi barədə cavabdeh [redacted] oğluna məlumat vermək məqsədilə dəfələrlə onunla əlaqə yatarmağa çalışsa da, uzun

müddət buna nail ola bilməmişdir. Hətta sonradan əlaqə yaratmaq mümkün olsa da, cavabdeh uşağın ölkədən çıxmasına icazə verməyəcəyini, yalnız bəlkə iddiaçının onun ayaqlarına düşərək yalvaracağı təqdirdə, əgər məsləhət bilsə bu barədə düşünəcəyini, o halda belə uşağın ölkədən çıxarılmasına özü tərəfindən təyin edilən konkret müddətdə icazə verəcəyini bildirmişdir. Buna baxmayaraq, iddiaçı bu ilin mart ayında bayramlarla əlaqədar xaricə getmək istəyini [redacted] oğluna bildirmiş, lakin müsbət nəticə əldə edə bilməmişdir. Hətta cavabdeh əvvəllər uşağın ölkədən çıxarılması ilə bağlı ona verdiyi etibarnaməni də notariusda ləğv etdirmişdir. Qeyd edilən hal uşağın və onunla birlikdə ananın hüquqlarının pozulmasına səbəb olur. Eyni zamanda, uşağın yaşının az olması və onun daim ana qayğısına ehtiyacı olduğundan iddiaçı uşağını tək buraxıb başqa ölkəyə gedə bilmir. Cavabdeh isə malik olduğu bu hüququndan sui-istifadə edərək iddiaçıya hədə-qorxu gəlməyə çalışır, bu imkandan təzyiq vasitəsi kimi istifadə edir. Ona görə də məhkəmədən yetkinlik yaşına çatmayan 25 iyul 2017-ci il təvəllüdlü [redacted] qızının cavabdeh [redacted] oğlunun razılığı olmadan iddiaçı [redacted] qızı ilə ölkədən sərbəst surətdə getməsinə və gəlməsinə icazə verilməsi barədə qətnamə qəbul edilməsini məhkəmədən xahiş etmişdir.

Məhkəmə iclasında iddiaçı [redacted] qızının nümayəndəsi və vəkili Əliyev Absələddin Murtuz oğlu iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə verərək, 25 iyul 2017-ci il təvəllüdlü [redacted] qızının cavabdeh [redacted] oğlunun razılığı olmadan iddiaçı [redacted] qızı ilə ölkədən sərbəst surətdə getməsinə icazə verilməsi barədə qətnamə qəbul edilməsini məhkəmədən xahiş etmişdir.

Cavabdeh [redacted] oğlu məhkəmə iclasının yeri və vaxtı barədə lazımi qaydada xəbərdar edilsə də, məhkəmə iclasına gəlməmiş və gəlməməsinin səbəbləri barədə hər hansı məlumat verməmişdir. Bu səbəbdən məhkəmə Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 185.5-ci maddəsinə əsasən işə cavabdehin iştirakı olmadan baxılmasını mümkün saymışdır.

Məhkəmə iddiaçının nümayəndəsi və vəkilinin izahatını dinləyib, iş materiallarını araşdırıb hesab edir ki, iddia təmin edilməlidir.

Belə ki, iş materiallarında olan 3 saylı Bakı Asan xidmət mərkəzi tərəfindən verilmiş 10 avqust 2017-ci il tarixli AZ-III seriyalı [redacted] nömrəli doğum haqqında şəhadətnamənin surətindən görünür ki, [redacted] qızı 25.07.2017-ci il tarixdə anadan olmuş və bu barədə akt qeydləri kitabında 4421 saylı akt qeydi tərtib edilmişdir. Uşağın atası [redacted] oğlu, anası [redacted] qızıdır.

İş materiallarında olan Bakı şəhəri Yasamal Rayon Qeydiyyat Şöbəsi tərəfindən [redacted]-cı il tarixdə verilmiş AZ-I seriyalı [redacted] nömrəli nikahın pozulması haqqında şəhadətnamənin surətindən görünür ki, [redacted] oğlu ilə [redacted] qızı arasında olan nikah [redacted] tarixdə pozulmuşdur və bu barədə nikahın pozulması haqqında akt qeydləri kitabında [redacted] nömrəli akt qeydi tərtib edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinə əsasən hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

Konstitusiyanın 28-ci maddəsinin III hissəsinə əsasən qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

Konstitusiyasının 37-ci maddəsinə əsasən hər kəsin istirahət hüququ vardır.

Birləşmiş Millətlər Təşkilatının 1989-cu il tarixli "Uşaq Hüquqları" haqqında Konvensiyasının 3-cü maddəsinin 1-ci bəndinə əsasən uşaqlar barəsində bütün tədbirlərdə əsas diqqət uşaq mənafelərinin daha yaxşı təmin edilməsinə yönəldilir, istər bu tədbirlər sosial təminat məsələləri ilə məşğul olan dövlət idarələri və ya özəl idarələr

tərəfindən görülsün, istərsə də məhkəmələr, inzibati və ya qanunvericilik orqanları tərəfindən.

Həmin Konvensiyanın 3-cü maddəsinin 2-ci hissəsinə əsasən iştirakçı dövlətlər uşağın valideynlərinin, qəyyumlarının və ya qanuna görə onun üçün məsuliyyət daşıyan digər şəxslərin hüquq və vəzifələrini nəzərə alaraq, uşağı onun rifahı üçün zəruri olan müdafiə və qayğı ilə təmin etməyi öhdələrinə götürür və bu məqsədlə bütün qanunvericilik tədbirlərini və inzibati tədbirləri görürlər;

Həmin Konvensiyanın 9-cu maddənin 1-ci hissəsinə əsasən iştirakçı dövlətlər təmin edirlər ki, uşaq və valideynləri onların arzusuna zidd olaraq ayrı düşməsinlər, amma məhkəmənin qərarına uyğun olaraq səlahiyyətli orqanların tətbiq edilən qanuna və prosedurlara müvafiq surətdə belə ayrılığın uşağın ən yaxşı mənafeyi üçün zəruri olduğunu müəyyənləşdirdikləri hallar istisna təşkil edir. Belə müəyyənləşdirmə bu və ya digər konkret halda, məsələn, valideynlər uşaqla qəddarcasına rəftar etdikdə və ya onun qayğısına qalmadıqda və ya valideynlər bir-birindən ayrı yaşadıqda və uşağın yaşayış yeri barədə qərar qəbul edilməli olduqda zəruri ola bilər.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 50.4-cü maddəsinə əsasən valideynlər müxtəlif dövlətlərdə yaşadıqda da uşaq öz valideynləri ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Ailə Məcəlləsinin 51.4-cü maddəsinə əsasən uşağın valideyinləri tərəfindən sui-istifadə etmə hallarından müdafiə olunmaq hüququ vardır;

Həmin Məcəllənin 58.2-ci maddəsinə əsasən valideynlər uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar.

Həmin Məcəllənin 61.1-ci maddəsinə əsasən uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyət hüququna, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir.

Həmin Məcəllənin 61.2-ci maddəsinə əsasən uşaqlarla yaşayan valideyn uşağın fiziki, psixi sağlamlığına, onun əxlaqi inkişafına zərər yetirməyən digər valideynlə uşağın ünsiyyətinə maneə olmamalıdır.

Həmin Məcəllənin 61.5-ci maddəsinə əsasən uşaqdan ayrı yaşayan valideyn öz uşağı haqqında tərbiyə və müalicə, sosial müdafiə və digər müvafiq müəssisələrdən məlumat almaq hüququna malikdir.

“Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar.

Həmin Qanunun 8-ci maddəsinə əsasən hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək hüququ vardır.

Həmin Qanunun 19-cu maddəsinə əsasən valideynlərin uşağın tərbiyəsində bərabər hüquq və vəzifələri vardır. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsas vəzifələridir.

Həmin Qanunun 25-ci maddəsinə əsasən-hər bir uşağın istirahət və asudə vaxtdan istifadə etmək hüququ vardır. Uşaq öz maraqlarına və qabiliyyətinə uyğun olaraq məktəbdənkənar istirahət etmək və məşğuliyyət növü seçməkdə müstəqildir. Valideynlər (onların əvəz edən digər şəxslər) və müvafiq dövlət orqanları uşaqların istirahət və asudə vaxtlarında mənfi təsirlərə məruz qalmasının qarşısını alan tədbirlər görməlidirlər.

“Ölkədən getmə, ölkəyə gəlmək və pasportlar haqqında” Azərbaycan Respublikası qanununun 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının hər bir vətəndaşı (bundan sonra vətəndaş) Qanunda nəzərdə tutulmuş qaydada xüsusi ayrılmış nəzarət məntəqələrindən keçib sərbəst surətdə ölkədən getmək və ölkəyə gəlmək hüququna

malikdir. Vətəndaş ölkədən getmək və ölkəyə gəlmək hüququndan məhrum edilə bilməz. Bu hüquq yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla, 4-cü bənddə nəzərdə tutulan hallarda isə eyni zamanda dayandırıla bilər: vətəndaş cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındıqda, məhkum edildikdə və ya barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edildikdə - müvafiq olaraq barəsində cinayət təqibi üzrə icraat başa çatanadək, cəzasını çəkib qurtaranadək və ya cəzadan azad edilənədək, yaxud tibbi xarakterli məcburi tədbirlərin tətbiqi ləğv edilənədək; vətəndaş müəyyənləşdirilmiş qaydada müddətli həqiqi hərbi xidmətə çağırıldıqda - müddətli həqiqi hərbi xidmət keçənədək və ya qanuna uyğun olaraq ondan azad edilənədək; beynəlxalq tibbi sanitariya qaydalarına və ya Azərbaycan Respubliasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə uyğun olaraq profilaktik peyvəndlər tələb olunan ölkələrə gediş-gəliş zamanı profilaktik peyvəndlərin aparılmasınadək. Hər hansı bir ölkədə fövqəladə vəziyyət və ya insan həyatı, sağlamlığı və azadlığı üçün təhlükə yaranarsa, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının əhalisini dərhal xəbərdar etməklə, vətəndaşlara həmin ölkəyə getməkdən müvəqqəti çəkinməyi tövsiyə edə bilər. Dövlət sirri ilə işləməyə buraxılmış şəxslərin tanış olmağa buraxıldığı məlumatın məxfilik müddəti bitənədək, lakin 5 ildən çox olmamaq şərti ilə, xarici ölkəyə daimi yaşamağa getmək hüququ müvəqqəti məhdudlaşdırıla bilər.

Həmin qanunun 2-ci maddəsinə əsasən 18 yaşına çatmamış vətəndaş ölkədən öz valideynlərinin və ya qanuni nümayəndəsinin notarius tərəfindən və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş razılığı ilə gedə bilər. Valideynlərdən birinin razılığı olmadıqda yetkinlik yaşına çatmamış vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir.

Məhkəmə baxışında tədqiq olunmuş sübutlarla müəyyən edilmişdir ki, [redacted] oğlu ilə [redacted] qızı rəsmi nikaha daxil olmuşlar. Onların birgə nikahlarından 25 iyul 2017-ci il təvəllüdlü [redacted] qızı anadan olmuşdur. Tərəflər arasında nikah məhkəmə qaydasında pozulmuşdur. [redacted] qızının anası, yəni iddiaçı [redacted] qızı ilə birlikdə ölkədən getməsinə və ölkədən gəlməsinə atasının, yəni cavabdeh [redacted] oğlunun icazəsi olmalıdır.

Qeyd olunan maddi hüquq normalarına əsaslanaraq məhkəmə hesab edir ki, cavabdehin hərəkətləri nəticəsində iddiaçının uşağının qanunla müəyyən edilmiş sərbəst surətdə ölkədən getmək və ölkəyə gəlmək hüquqları pozulur. Məhkəmə qeyd edir ki, iddiaçı öz uşağı ilə istənilən əsasla bu hüququ həyata keçirə bilər. Bu hüququn məhdudlaşdırılması halları yuxarıda göstərilən qanunla müəyyən edilmişdir və hazırkı işdə həmin hallar mövcud deyildir.

Məhkəmə hesab edir ki, valideynlərindən birinin razılığı olmadıqda yetkinlik yaşına çatmamış vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı ilə həll edildiyindən, 25 iyul 2017-ci il təvəllüdlü [redacted] qızının Azərbaycan Respublikasından kənara getməsinin müvəqqəti olduğu hallarda atası [redacted] oğlunun icazəsi olmadan Azərbaycan Respublikasından kənara aparılmasına icazə verilməlidir.

Qeyd olunanlara əsasən, məhkəmə hesab edir ki, iddia təmin edilməli, iddiaçı [redacted] qızına 25 iyul 2017-ci il təvəllüdlü [redacted] qızını geri qaytarmaq şərti ilə, atası [redacted] oğlunun razılığı olmadan ölkədən çıxarmasına icazə verilməlidir.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 216-220-ci maddələrini rəhbər tutaraq, məhkəmə

QƏT ETDİ:

İddia təmin edilsin.

İddiaçı [redacted] qızına 25 iyul 2017-ci il təvəllüdlü [redacted] qızının yetkinlik yaşına çatanadək, onunla birlikdə daimi əsaslarla ölkəni tərk etməsi istisna olunmaqla, [redacted] oğlunun icazəsi olmadan Azərbaycan Respublikasının hüdudlarından kənara çıxmaq hüququ verilsin.

Qətnamədən, onun rəsmi qaydada verildiyi gündən 1 (bir) ay müddətində Bakı şəhəri Yasamal Rayon Məhkəməsi vasitəsi ilə Bakı Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti verilə bilər.

Qətnamədən şikayət verilmədikdə, qəbul edildiyi gündən 1 (bir) ay keçdikdən sonra qanuni qüvvəyə minir.

Hakim: Gülnar Babazadə

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Gülnar Babazadə
**Məhkəmənin adı:** Bakı Şəhəri Yasamal Rayon Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 017